# HEYDƏR ƏLİYEVİN GƏNC KADRLARIN DÖVLƏTİN İDARƏ EDİLMƏSİNƏ CƏLB OLUNMASI İSTİQAMƏTİNDƏ FƏALİYYƏTİ (1969-1982-Cİ İLLƏR)

**Yüzdanə Cabbarlı**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
*"Əliyevşünaslıq" şöbəsinin kiçik elmi işçisi*
*Uzdana93@mail.ru*

## HAYDER ALIYEV'S ACTIVITY IN THE DIRECTION OF INVOLVING YOUNG PERSONNEL IN STATE ADMINISTRATION (1969-1982)

**Yuzdane Cabbarli**

**Summary**

The article illustrates the problems in the activities of youth organizations in the 60s of the 20th century and the measures taken in this area by the coming of Heydar Aliyev to power. At the same time, the article addresses activities of Heydar Aliyev in the 70s to increase participation of young people and women in public administration structures and to appoint them to leading positions.

**Keywords:** Heydar Aliyev, Azerbaijan SSR, Communist Party, youth organizations, youth, women.

## HEYDƏR ƏLIYEVIN GƏNC KADRLARIN DÖVLƏTIN IDARƏ EDILMƏSINƏ CƏLB OLUNMASI ISTIQAMƏTINDƏ FƏALIYYƏTI (1969-1982-CI ILLƏR)

**Yüzdanə Cabbarlı**

**Xülasə**

Ölkəmizin həyatında böyük rol oynayan gənclər Azərbaycan SSR-in iqtisadiyyatına, elm və mədəniyyətinin tərəqqisinə sanballı töhfə verir, respublikanın müdafiə qabiliyyətinin möhkəmləndirilməsində iştirak edirdilər. Gənc kadrların dövlət idarəçiliyi sistemində iştirakı, gənclərin hərtərəfli inkişafı, səmərəli məşğulluğu və onların potensiallarından dövlətin rifahı üçün istifadə olunması baxımından çox vacib hesab edilir. Məhz buna görə də Heydər Əliyev gənclərin dövlətin idarə olunmasına geniş cəlb edilməsinə xüsusi diqqət yetirirdi.

Dövlət işlərinin və ictimai işlərin idarə olunmasında gənclərin hüquqları SSRİ Konstitutsiyasının (1977-ci il), habelə müttəfiq və muxtar respublikaların konstitutsiyalarında qanunvericilik yolu ilə təsbit edilmişdir.

**Açar sözlər:** Heydər Əliyev, Azərbaycan SSR, Kommunist Partiyası, gənclər təşkilatları, gənclər, qadınlar.

## ДЕЯТЕЛЬНОСТЬ ГЕЙДАРА АЛИЕВА В НАПРАВЛЕНИИ ПРИВЛЕЧЕНИЯ МОЛОДЫХ КАДРОВ В ГОСУДАРСТВЕННОЕ УПРАВЛЕНИЕ (1969-1982 ГГ.)

**Юздана Джаббарлы**

**Аннотация**

В статье излагаются проблемы, с которыми сталкивались молодежные организации в своей деятельности в 60-е годы XX века, и меры, принятые Гейдаром Алиевым для разрешения их после прихода его к власти. В тоже время, в статье освещается деятельность Гейдара Алиева в привлечении женщин и молодежи в структуры государственного управления и назначения их на руководящие должности.

**Ключевые слова**: Гейдар Алиев, Азербайджанская ССР, Коммунистическая партия, молодежные организации, молодежь, женщины.

**Giriş.** Ölkəmizin həyatında böyük rol oynayan gənclər Azərbaycan SSR-in iqtisadiyyatına, elm və mədəniyyətinin tərəqqisinə sanballı töhfə verir, respublikanın müdafiə qabiliyyətinin möhkəmləndirilməsində iştirak edirdilər. Gənc kadrların dövlət idarəçiliyi sistemində iştirakı, gənclərin

hərtərəfli inkişafı, səmərəli məşğulluğu və onların potensiallarından dövlətin rifahı üçün istifadə olunması baxımından çox vacib hesab edilir. Məhz buna görə də Heydər Əliyev gənclərin dövlətin idarə olunmasına geniş cəlb edilməsinə xüsusi diqqət yetirirdi.

Dövlət işlərinin və ictimai işlərin idarə olunmasında gənclərin hüquqları SSRİ Konstitutsiyasının (1977-ci il), habelə müttəfiq və muxtar respublikaların konstitutsiyalarında qanunvericilik yolu ilə təsbit edilmişdir. SSRİ Konstitutsiyasının 96-cı maddəsində qeyd edilirdi ki, SSRİ-nin 18 yaşına çatmış bütün vətəndaşları seçmək və seçilmək hüququna malikdirlər. SSRİ Ali Sovetinə 21 yaşına çatmış SSRİ vətəndaşları deputat seçilə bilərdi [10, 130].

Qeyd etmək lazımdır ki, Heydər Əliyevin Azərbaycan SSR-də hakimiyyətə gəlməsinə qədər qadınların və gənclərin rəhbər vəzifələrə irəli çəkilməsində ciddi problemlər vardı. Belə ki, XX əsrin 60-cı illərində xalq təsərrüfatına rəhbərlikdə, partiya, sovet, həmkarlar ittifaqı və gənclər təşkilatlarının təşkilatçılıq, kütləvi-siyasi və ideoloji işində yol verilən ciddi səhvlər və qüsurlarla əlaqədar olaraq respublikada ağır vəziyyət yaranmışdı. 1950-ci illərin sonu 1960-cı illərin əvvəlləri gənclərin ictimai-siyasi fəallığını artırmaq üçün bəzi işlər görülsə də, bu tədbirlər səthi xarakter daşıdığından səmərəli nəticə vermirdi. Bütün bunlar isə gənclərin öz qüvvəsinə inamını, təşəbbüskarlığını, sosial fəallığının zəiflədir, onların hakimiyyətə, siyasətə və idarəetmə işinə yadlaşması ilə nəticələnirdi. Onların gənclər təşkilatları ətrafında birləşməsinə şərait yaratmaq üçün ÜİLKGİ XIV (1961-ci il) və XV (1966-cı il) qurultayları komsomol komitələrinin hüquqlarını bir qədər artırsa da, bu yerli təşkilatların müstəqilliyini və özünüidarəsini heç də artırmamışdı.

Xalq istehlakı malları istehsal edən sahələrdə də gənclər aparıcı rol oynasa da, onların istehsalatda sabitləşdirilməsi məsələsində ciddi səhvlər var idi və bəzi sahələrdə axıcılıq 50%-ə çatırdı. Bunun əsas səbəbi isə fəhlə kadrlara normal əmək və məişət şəraitinin yaradılmaması idi [3, 137].

Gənclərin irəli çəkilməsini daim diqqət mərkəzində saxlayan Heydər Əliyev Azərbaycan gənclərinin XXX qurultayında çıxışında göstərmişdir ki, indi bizim qarşımızda duran ən mühüm problem elə istehsalat kollektivləri yaratmaqdan ibarətdir ki, orada yalnız mühəndis-texniki işçilər deyil, fəhlə kadrları da yüksək ixtisasa və proseslərin idarə olunması sahəsində mürəkkəb vəzifələri yerinə yetirmək qabiliyyətinə malik olsunlar [5, 13-14]. Eyni zamanda Heydər Əliyev qurultaydakı çıxışında neft sənayesini və respublika komsomolu rəhbərlərinin diqqətini bu sahədə gənclərin sayının az olması, kadrların sabitləşdirilməməsi faktlarına cəlb etmiş və qeyd etmişdi ki, uzun bir dövr ərzində bu sahədə yaşı 30-a qədər işçilərin sayı 22%-dən yuxarı qalxmır, halbuki, ümumən respublika sənayesində gənclərin sayı bütün işçilərin sayının 41%-nə bərabərdir [3, 136].

XX əsrin 70-ci illərində Heydər Əliyev gəncləri dövlətin idarə olunmasına cəlb etmək sahəsində keçirdiyi tədbirlər sayəsində respublika gənclər təşkilatlarının keyfiyyət və kəmiyyət tərkibi yaxşılaşmışdı. Belə ki, 1959-cu ilin əvvəllərində Azərbaycan LKGİ-nin sıralarında 332237 nəfər gənc birləşirdisə, 1987-ci ilin əvvəllərində bu rəqəm 1238089-a çatmış və ya təqribən 3,7 dəfə çoxalmışdır. Azərbaycan LKGİ-nin ilk təşkilatlarının şəbəkəsi genişlənmiş, strukturunda irəliləmələr baş vermişdir. 60-80-ci illərdə gənclər təşkilatlarının sayı 6539-dan 11298-ə çatmış və ya təqribən iki dəfə artmışdır. Qeyd etmək lazımdır ki, bu dövrdə kolxozların sovxozlara çevrilməsi ilə əlaqədar olaraq kənddə gənclər təşkilatlarının strukturunda müəyyən dəyişikliklər baş vermişdir. Belə ki, kolxoz ilk komsomol təşkilatların sayı azalmış, eyni zamanda sovxoz gənclər təşkilatlarının sayı xeyli artmışdır. Eyni zamanda respublikada bu dövrdə 500 nəfərdən çox üzvü olan gənclər təşkilatlarının sayı 17-dən 299-a çatmışdır [10, 131].

Qeyd etmək lazımdır ki, görülən işlər sayəsində artıq gənclər dövlətin idarə olunmasında bilavasitə iştirak edirdilər. Belə ki, 1979-cu ildə SSRİ Ali Sovetinə seçilən deputatların 207 (13,8%-ni) nəfərini gənclər təşkil edirdi. 1980-ci fevral ayının 24-də müttəfiq və muxtar respublikaların Ali Sovetlərinə 6728 deputat seçilmişdir. Onların 964 nəfəri (14,3%) ÜİLKGİ üzvü idi. Yerli Sovetlərə seçilən bütün deputatların 21,2%-ni gənclər təşkil edirdi [16]. Azərbaycan SSR-in yerli Sovetlətinə seçilən 49804 deputatın 20,3%-ni ÜİLKGİ üzvləri təşkil edirdi [8, 6].

1967-ci ildə Azərbaycan SSR Ali Sovetinin deputatlarından 42 nəfəri və ya 11,4 %-i 30 yaşınadək olan gənclər idi. 1985-ci ildə isə artıq Azərbaycan SSR Ali Sovetində 30 yaşınadək olan deputatların sayı 112 nəfərə, gənclərin sayı isə 87 nəfərə çatmışdı [10, 132].

Heydər Əliyevin bacarıqlı kadrların, xüsusən qadınların və gənclərin qətiyyətlə irəli çəkilməsi siyasətini Azərbaycan SSR-in ayrılmaz hissəsi olan Naxçıvan MSSR-in timsalında da görmək mümkündür. Əgər 1972-ci ildə VPK-nın nomenklaturasında cəmi 25 nəfər qadın var idisə, 1974-cü ildə onların sayı 41-ə çatdırılmışdır. Bu zaman nomenklaturaya daxil olan işçilərin sırasında 40 yaşına qədər olanların sayı 60%-dən yuxarı idi. Naxçıvan MSSR Ali Soveti və yerli sovetlərin deputatlarının 29%-i 30 yaşınadək olan gənclərdən ibarət idi [11, 151].

1970-ci illərdə Azərbaycanlı gənclər artıq respublikanın ictimai-siyasi həyatında daha fəal iştirak etməyə başlamışdılar. Belə ki, Heydər Əliyevin bu sahədə gördüyü böyük işlərin sayəsində 16 mindən çox gənc vətəndaş xalq deputatları sovetlərinin, o cümlədən 118 nəfər SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir. 17.500 gənc rəhbər həmkarlar ittifaqı orqanlarında çalışır, 40 mindən çox gənc xalq nəzarəti işində fəal iştirak edirdi [7, 212].

Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbəriliyi dövründə əldə edilmiş tarixi naliyyətlərdən biri də güclü kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssislər ordusunun yaradılması idi. Belə ki, bu illərdə SSRİ-nin 170 qabaqcıl ali məktəblərinə 3500 azərbaycanlı gənc göndərilmiş-di. 1970-ci illərdə Heydər Əliyevin kosmonavtlar içərisində azərbaycanlıların az olması faktının aradan qaldırılmasına yönəlmiş uğurlu fəaliyyəti nəticəsində ölkənin aviasiya məktəblərinə azərbay-canlı gənclər təhsil almağa göndərilməyə başlandı. Belə ki, Heydər Əliyevin göstərişi əsasında Kiyev Mülki Aviasiya institutuna 42 nəfər azərbaycanlı gənc oxumağa göndərildi. Həmçinin, 1981-ci ildə ilk dəfə təyyarəçilik məktəblərinə gənclərin böyük bir qrupu göndərilmişdir [14, 93-94].

Heydər Əliyev qadınların rəhbər vəzifələrə irəli çəkilməsinə böyük siyasi və əməli əhəmiyyət verirdi. Respublikanın ictimai-siyasi həyatında qadınların rolundan hər zaman bəhs edən Heydər Əliyev Azərbaycan KP-nın XXIX qurultayında da qeyd etmişdir: “Qadın kadrları ilə iş nəzərə çarpacaq dərəcədə yaxşılaşmışdır. Məsul partiya və sovet işində, başqa sahələrdə qadınların sayı xeyli artmışdır. Bir qayda olaraq rəhbər vəzifələrdə çalışan qadınlar tapşırılan işin öhdəsindən yaxşı gəlirlər” [4, 83].

Qadınların idarəetmə işlərinə cəlb olunması sahəsində olan problemlərin kökündə qızların 16 yaşında ailə həyatı qurmasına icazə verən qanunun olması, onların məktəbdən ayrılması və s. məsə-lələr dayanırdı. Eyni zamanda orta təhsilini tam bitirməmiş, ali təhsil almamış qadınların çoxluq təşkil etməsi savadlı gənc nəslin yetişməsinə də öz mənfi təsirini göstərirdi. Mövcud vəziyyət apa-rılmış geniş təbliğat, nəzarət, qiyabi məktəblər şəbəkəsinin genişləndiriməsi və s. tədbirlər sayəsində xeyli yaxşılaşmışdı. Belə ki, 1960-1961-ci dərs ilində işləyən gənclərin içərisində oxu-yanların cəmi 9 %-i, 1981-1982-ci dərs ilində isə artıq 45 %-i, Astara, Lənkəran, Masallı, yardımlı rayonlarında isə 80-85 %-i qadın və qızlar idi [9, 122].

Qadınların rəhbər vəzifələrə irəli çəkilməsi sahəsində atılan addımların nəticəsi özünü hələ 1970-ci illərin əvvəllərindən göstərirdi. 1971-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinin tərkibində Xarici İşlər naziri və İctimai Təminat naziri qadın idi. Bundan başqa Azərbaycan SSR Mandat komissiyasında 2, Qanunvericilik mülahizələri komissiyasında 8, Plan büdcə komissiyasında 13, Sənaye, Nəqliyyat və Rabitə komissiyasında 3, Tikinti və İnşaat materialları sənayesi komissiyasın-da 10, Kənd təsərrüfatı komissiyasında 13, Səhiyyə və İctimai Təminat komissiyasında 7, Xalq ma-arifi, elm və mədəniyyət komissiyasında 11, Ticarət, Əhaliyə məişət xidməti və Kommunal təsərrü-fatı komissiyasında 14, Gənclər komissiyasında 7, Təbiəti mühafizə komissiyasında 4, Xarici İşlər komissiyasında 5 nəfər qadın çalışırdı [1; 12,15-25].

1980-ci ildə Azərbaycan SSR-də qadınlar müəllimlər arasında 48%, tibb işçiləri arasında 59%, elmi işçilər arasında 37%, ali məktəblərdə oxyanlar arasında 40% və orta ixtisas məktəblərində isə 45% təşkil edirdilər [17; 232,242, 257].

Beləliklə, 1970-1980-ci illərdə Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə həyata keçirilən düşünülmüş siyasət nəticəsində respublikada ictimai həyatın bütün sahələrində baş verən müsbət dəyişikliklər gənclərin sosial-psixoloji vəziyyətinə, siyasi fəallığına müsbət təsir göstərdi. Ümummilli lider Heydər Əliyevin Azərbaycan SSR-in siyasi rəhbəri olduğu dövrdə gənclərin və qadınların ictimai-siyasi fəallığı artmış, onların dövlət idarəetmə strukturlarında təmsil olunması sahəsində böyük irəliləyiş baş vermiş, onların təhsil və mədəni səviyyəsi yüksəlmişdir. Bir çox

rəhbər vəzifələrdə gəncləşmə prosesi getmiş, bu təkcə yaşda deyil, həm də təfəkkürdə, işə yanaşma-da da təzahür etmiş, idrəetmə ilə iqtisadi inkişaf arasında qarşılıqlı əlaqə yaranmışdır. Nəticədə respublikada təcrübə ilə gənc kadrların dinamizmi arasında vəhdət qurulmağa başlandı. Onun gənclər siyasəti Azərbaycan SSR-də insan inkişafının daha da yüksəlməsinə, əhalinin sosial-iqtisadi problemlərinin həllinə yönəlmiş çevik yanaşmanın yaranmasına səbəb oldu.

**İstifadə olunmuş əddəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi, F.№1, s.№58, iş №105.
2. ARPİİİSSA, F.№1, s.№67, iş №22.
3. Cəfərov H.R. Azərbaycanda gənclər hərəkatı yeni inkişaf mərhələsində: (1940-2007-ci illər). Bakı: Adiloğlu, 2007, 224s.
4. Əliyev H.Ə. Azərbaycan Kommunist Partiyasının XXIX qurultaına Azərbaycan KP Mərkəzi Komitəsinin hesabat məruzəsi: 28 yanvar 1976-cı il. Bakı: Azərnəşr, 1976, 108 s.
5. Əliyev H.Ə. Kommunizim uğrunda mübarizədə partiyanın sədaqətli dayağı. Azərbaycan komsomolunun XXX qurultayında nitq. Bakı, Azərnəşr, 1978, 52s.
6. Heydər Əliyev. İki cilddə. I cild. Bakı: Turxan NPB, 500s.
7. İnkişaf etmiş sosializm şəraitində Azərbaycan Kommunist partiyasının kadr siyasəti (mühazirəçilər üçün metodiki tövsiyə). Bakı:1981, 13s.
8. Qaffarov T.B. Azərbaycan SSR kənd əhalisinin maddi rifahı və mədəni səviyyəsinin yüksəldilməsi (60-80-ci illərin birinci yarısı). Bakı: Elm, 1986. 180 s.
9. Qasımov Ə.Q. Gəncləri dövlətin idarə olunmasına cəlb etmək sahəsində Azərbaycan LKGİ-nin fəaliyyəti (60-80-ci illər) //Azərbaycan SSR EA Tarix İnstitutunun ÜİLKGİ-nin 70 illiyinə həsr olunmuş Elmi konfransın materialları. Bakı, 1989, 214 s.
10. Qasımov Ə.Q. Heydər Əliyevin inkişaf strategiyası və Naxçıvan Muxtar Respublikası (XX əsrin 70-80-ci illəri). Bakı: Təhsil, 2009, 320 s.
11. Qədirova E.H. Azərbaycan qadınları kommunizmin fəal qurucularıdır: 1966-1980-ci illər. Bakı: Elm, 1982, 187 s.
12. Mahmudov Y.M. Azərbaycan: qısa dövlətçilik tarixi. Bakı: Təhsil, 2005, 140s.
13. Süleymanov M. Azərbaycanda Ali Baş Komandanlıq institutunun Heydər Əliyev mərhələsi. Bakı: Elm və təhsil, 2018, 728 s.